# SAĞLAMLIQ TURİZMİNİN BAKI ZİRVƏSİ AZƏRBAYCAN QLOBAL FORUMA YÜKSƏK SƏVİYYƏDƏ EV SAHİBLİYİ ETDİ

GLOBAL HEALTHCARE TRAVEL COUNCIL



Bütün dünyada – Amerikadan Malayziyaya qədər geniş bir coğrafiyada aktual olan sağlamlıq turizmindən istifadə edənlərin sayı ildən-ilə artır. Dünyada müalicə turizmi sahəsində dövriyyə ildə 100 milyard dollarlarla ölçülür. Maraqlıdır ki, dünyada baş verən ekoloji fəsadlar, müxtəlif ölkələrdə gedən məhəlli müharibələr belə bu məqsədlə səfər edən insanlara maneçilik törədə bilmir. Həmin səbəbdəndir ki, digər turizm növlərində geriləmə olduğu halda sağlamlıq turizmi hər zaman rentabellidir. Adıçəkilən turizm növündə gecələmə sayı 7, 14 və 21 gündür. Bu da turistlərin mövsüm və qeyri-mövsümdə ölkəyə cəlb olunmasında böyük əhəmiyyət kəsb edir.

Sağlamlıq turizmi alternativ turizm növü kimi Azərbaycanda da çox aktualdır. Elə ölkəmizi dünyada turizm üçün səciyyəvi edən ən başlıca xüsusiyyət də həmin sahənin bütün istiqamətlərinin inkişafı üçün lazım olan təbii şəraitin mövcudluğudur.

Lakin bir faktdır ki, müasir standartlara cavab verən infrastruktur və təbliğat-təşviqatsız turizmin inkişafında yüksək nəticələr əldə etmək mümkün deyil. Ona görə də son illər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən turizm sahəsi üzrə imzalanan fərman və sərəncamlar ölkədə bu sahənin inkişafına çox böyük töhfələr verməkdədir. Eyni zamanda Azərbaycanın qlobal tədbirlərə ev sahibliyi etməsi ölkəmizin turizmin bütün istiqamətləri, o cümlədən də sağlamlıq turizmi sahəsində populyarlıq qazanmasına səbəb olur.

### Azərbaycan bir il Qlobal Sağlamlıq Turizm Şurasına sədrlik edib

Aprelin 23-də Bakıda keçirilən 3-cü Qlobal Sağlamlıq Turizm Forumu və Qlobal Sağlamlıq Turizm Şurasının (QSTŞ) 5-ci Assambleyası da ölkə turizminin təbliğatına xidmət edirdi.

"Qlobal Sağlamlıq hamı üçün" şüarı altında gerçəkləşdirilən tədbirə QSTŞ-yə üzv 25 ölkənin milli sağlamlıq turizm qurumlarının rəhbərləri, Milli Məclisin deputatları, Azərbaycan turizm ictimaiyyətinin, aidiyyəti dövlət qurumlarının və kütləvi informasiya vasitələrinin nümayəndələri qatılmışdılar.

Əvvəlcə onu qeyd edək ki, QSTŞ 2013-cü ildə Monakoda keçirilən Beynəlxalq Tibbi Səyahət Konfransında Türkiyə Cümhuriyyətinin təşəbbüsü ilə təsis edilib və indiyədək təşkilatın 4 zirvə toplantısı qismində sayılan forumu keçirilib. QSTŞ-nin 60-a yaxın üzvləri sırasında ABŞ, AFR, Böyük Britaniya, Türkiyə, Polşa, Yunanıstan, Macarıstan, Bolqarıstan, RF, Ukrayna, Gürcüstan, Çin Xalq Respublikası, Hindistan, İran İslam Respublikası, Qazaxıstan, İordaniya Krallığı, Səudiyyə Ərəbistanı və başqa nüfuzlu ölkələr var.

Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyası Qlobal Sağlamlıq Turizm Şurasında Azərbaycanı 2014-cü ildən etibarən təmsil edir və həmin vaxtdan da bu təşkilatın İdarə Heyətinin üzvüdür. 2018-ci ilin aprelində QSTŞ-nin Türkiyədə keçirilən növbəti Zirvə Toplantısında AHTTSA-nın sədri Ruslan Quliyev bu beynəlxalq qurumun prezidenti seçilib və Azərbaycan Respublikası qeyd olunan mötəbər təşkilata rəhbərlik hüququ ilə növbəti sahib ölkə qismində təsdiqlənib.

### Hədəf turistlərin ən çox üstünlük verdikləri 20 məkandan biri olmaqdır

Tədbirdə çıxış edənlər, əsasən fikirlərini bu fakt üzərində qurdular ki, hazırda Azərbaycanda dərin iqtisadi islahatlar aparılır və bu islahatların məqsədi vətəndaşlarımızın sosial rifahını yaxşılaşdırmaq, ölkəmizin iqtisadi qüdrətini yüksəltmək, neftdən asılılığı azaldaraq şaxələndirilmiş iqtisadiyyata sahiblənmək, qeyri-neft sektorunun əsas sahələrindən biri olan turizm sahəsində gəlirlərin artırılmasının təminidir. Turizm sənayesinin inkişafı Azərbaycan üçün prioritet sayılan sektorlardan biridir. Prezident İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə vurğulanır ki, mövcud imkan və potensialdan səmərəli istifadə etməklə Azərbaycan 2025-ci ilədək həm regionda, həm də digər dünya ölkələri arasında cəlbedici turizm məkanlarından birinə çevriləcək. 2025-ci ildən sonrakı dövr üzrə perspektiv isə ölkəni dünyada turistlərin ən çox üstünlük verdikləri 20 turizm məkanından birinə çevirməkdir.



Qeyd edildi ki, Azərbaycanda turizmin xüsusi istiqamətlərindən biri olan sağlamlıq və termal turizm sənayesi son illərdə özünün inkişaf dövrünü yaşayır və Qlobal Sağlamlıq Turizmi Forumunun Bakıda keçirilməsi də bunun sübutudur.

### Sağlamlıq təsisatlarının hərəsi bir dərdin dərmanıdır

Sağlamlıq turizmi sahəsində ölkəmizin sahib olduğu imkanlar forum üçün hazırlanmış videoçarx vasitəsilə qonaqların diqqətinə çatdırılıb. Bildirilib ki, Azərbaycandakı sağlamlıq təsisatlarının heç biri bir-birinə rəqib deyil, hərəsi bir dərdin dərmanıdır. Naftalan neftinin dünyada bənzəri yoxdur. Əsasən, revmatizm, oynaq, dəri xəstəliklərinin müalicəsində yararlıdır. Naftalan neftindən 15 adda dərmanın hazırlanmasında istifadə olunur ki, bununla da 70 xəstəliyin müalicəsi mümkündür. Təkcə ötən il Naftalana müalicə məqsədilə 62 ölkədən 35 min nəfər turist gəlib. Qalaaltı suyu böyrək daşlarının düşürülməsində, Duzdağ astma-bronxit xəstəliklərinin, Masallıdakı istisu mədə-bağırsaq sistemi xəstəliklərinin və s. müalicəsində müstəsna rol oynayır. Çox maraqlıdır ki, Naftalan nefltini, mineral suları öz məkanlarından kənara apardıqda, müalicəsi həmin effekti vermir. Ona görə də onların hər birinin təbliğatını elə öz yerlərində aparmaq lazımdır.



Tədbirin qonaqları da öz çıxışlarında Azərbaycanın bu sahədə imkanlarını yüksək dəyərləndiriblər və belə bir forumun ölkə paytaxtında keçirilməsinin əhəmiyyətindən danışıblar. Qlobal Sağlamlıq Turizmi Şurasının qurucusu və fəxri sədri Emin Çakmak bildirib ki, Azərbaycanın bir neçə sağlamlıq məkanında olub və hesab edir ki, ölkədə bu baxımdan unikal imkanlar mövcuddur: "Bu forumun Bakıda reallaşması Azərbaycanın sözügedən sahədə daha da tanınmasına səbəb olacaq. Hazırda sosial media vasitəsilə dünyanın dörd bir yanından bizi izləyirlər. Eyni zamanda şuranın 58 üzv ölkəsinin əksəriyyətindən, o cümlədən Rusiyadan, Almaniyadan, Türkiyədən, Qazaxıstandan, Gürcüstandan və s. nümayəndələri buradadır. Bundan gözəl təbliğat ola bilməz. Azərbaycan qlobal şəkildə sağlamlıq turizmi sənayesinə inteqrasiya olunur".

Forumun davam etdiyi müddətdə müxtəlif mövzularda panel iclasları keçirilib, bir neçə sənəd də imzalanıb. Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyası və AMEA Neft-Kimya Prosesləri İnstitutu arasında imzalanan əməkdaşlıq memorandumu mütəxəssislər tərəfindən ölkəmizdə turizmin bu istiqamətinin daha sistemli və geniş təbliği baxımından əhəmiyyətli bir sənəd kimi dəyərləndirilib.

Forumun yekunu olaraq Bakı deklarasiyası qəbul edilib.

Tədbirin sonunda səsvermə yolu ilə Qlobal Sağlamlıq Turizmi Şurasına sədrlik Azərbaycandan Ukraynaya keçib. Ukrayna Tibbi Turizm Assosiasiyasının prezidenti Voletta Yanyshvska növbəti bir il ərzində QSTŞ-yə sədrlik edəcək. ❖

**Fəxriyyə Abdullayeva**